*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyun 2017-ci il № 42 (2159) QiymƏti 25 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev mayın 31-də Azərbaycan vətəndaşlarının 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2017-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## 28 May Vaşinqtonda Azərbaycan Milli Günü elan edilib

*Vaşinqton şəhərinin meri Müryel Bouzer 2017-ci il 28 may tarixinin ABŞ paytaxtında rəsmi şəkildə Azərbaycan Milli Günü elan edilməsi barədə bəyanat imzalayıb.*

Bəyanatda bildirilir ki, 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti müsəlman şərqində ilk dünyəvi demokratik respublika olub və bütün vətəndaşlarına bərabər hüquqlar, o cümlədən qadınlara seçkilərdə iştirak hüququ verib. Sənəddə, həmçinin vurğulanır ki, dünya azərbaycanlıları 99 ildir 28 May tarixini milli bayram - Respublika Günü kimi qeyd edirlər.

Vaşinqton meri sənəddə bu il ABŞ ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünün qeyd edildiyini xatırladır. Vurğulanır ki, Azərbaycanın ABŞ-dakı səfirliyi Vaşinqton meriyası ilə tərəfdaşlıq şəraitində şəhərin təhsil və mədəni müxtəlifliyinə töhfə verir.

Qeyd edək ki, ABŞ paytaxtında 28 may tarixinin Azərbaycan Milli Günü elan edilməsi artıq ənənəyə çevrilib. Ümumiyyətlə, ABŞ-ın digər ştatlarında və ayrı-ayrı şəhərlərində də 28 Mayın Azərbaycanın Milli Günü elan edilməsi təcrübəsi mövcuddur.

**AZƏRTAC**

*"Ən yaxşı artilleriya divizionu"*

# Artilleriyaçıların hazırlığı möhkəmlənir



*Silahlı Qüvvələrdə şəxsi heyətin döyüş ustalığını artırmaq üçün kompleks tədbirlər həyata keçirilir. İxtisas, taktiki, atəş hazırlığı dərsləri, təlimlər ordunun döyüş hazırlığının yüksəldilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bunlardan biri də ayrı-ayrı ixtisaslar üzrə döyüşçülər və bölmələr arasında yarışların keçirilməsidir.*

Bu günlərdə hərbi hissələrimizdən birində "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışda iştirak etdik. Dağların ətəyində bölmələr və artilleriya qurğuları səf-səf düzülmüşdü. Yuxarı komandanlığın nümayəndələrinin iştirakı ilə şəxsi heyətin sıra baxışı keçirildi.

Bölmələrin fəaliyyətinin ayrılmaz hissəsi olan sıra baxışı zamanı topçuların xarici görkəmindən tutmuş silah və texnikanın düzülüşünə və vəziyyətinə qədər hər şeyə diqqət yetirilirdi.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri NATO nümayəndəsi ilə görüşüb

*Mayın 31-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının İzmir şəhərində yerləşən NATO-nun Quru Qoşunları Komandanlığının Qərargah rəisi, diviziya generalı Erhan Uzun ilə görüşüb.*



Görüşdə Azərbaycanın NATO ilə əməkdaşlığı, ölkəmizin beynəlxalq sülhməramlı əməliyyatlara verdiyi töhfə, təhlükəsizlik məsələləri, regionda baş verən hərbi-siyasi proseslər və digər mövzular ilə bağlı müzakirələr aparılıb.

Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin motoatıcı taborunun 2-ci səviyyəli NATO qiymətləndirməsi təlimi ilə əlaqədar ölkəmizdə səfərdə olan E.Uzun Azərbaycan Silahlı Qüvvələrinin NATO və tərəfdaş dövlətlərlə uzlaşma səylərini, həmçinin beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına ölkəmizin verdiyi töhfəni yüksək qiymətləndirdiyini xüsusi vurğulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

## Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 31-də Bakı vaxtı ilə saat 21.55-də Şırnak əyalətinin Uludərə rayonundakı Şenoba bölgəsində Türkiyə Silahlı Qüvvələrinə məxsus hərbi helikopterin qəzaya uğraması nəticəsində həlak olan hərbçilərlə bağlı Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Fikri İşıka və Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Hulusi Akara başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Türkiyə Respublikasının Şırnak vilayatində baş vermiş helikopter qəzası nəticəsində, biri general olmaqla, çox sayda hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən sarsıtdı.

Biz bu dəhşətli hadisədən çox kədərlənirik.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin."

## İyunun 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyunun 1-dək 82 milyon 414 min 536,16 manat, 212 min 873,88 ABŞ dolları, 7436 avro və 5 min rubl vəsait yığılıb.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə təsis olunub. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

# Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.*

Müdafiə Nazirliyinin rəhbərliyi ötən ilin aprel ayında Lələtəpə uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların xatirəsinə Füzuli rayonunun Horadiz şəhərində ucaldılmış kompleksi ziyarət edərək, önünə əklil və gül dəstələri qoyub.

Ön xətdə düşmənlə üzbəüz səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov qarşı tərəfi müşahidə edib, ərazidəki əməliyyat şəraiti və müdafiə zolağındakı vəziyyətlə tanış olub.

Cəbhə xəttində yerləşən hərbi hissələrdən birində yeni inşa edilmiş hamam-camaşırxana, qazanxana kompleksinin və ərzaq anbarının açılışından sonra nazirliyin rəhbər heyəti hərbi qulluqçuların döyüşə hazırlıq səviyyəsini və mənəvi-psixoloji vəziyyətini yoxlayıb, sosial-məişət şəraiti ilə tanış olub.

Şəxsi heyətlə keçirilən görüşdən sonra birgə nahar təşkil olunub.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Cəbhənin müxtəlif istiqamətlərində yaşayış məntəqələrimiz atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mayın 30-da gecədən başlayaraq mayın 31-i səhərədək Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan, o cümlədən 82 və 120 millimetrlik minaatanlardan istifadə edilməklə mövqelərimiz və cəbhənin Tərtər, Ağdam və Füzuli rayonları ərazisində bir sıra yaşayış məntəqələrimiz atəşə tutulub. Silahlı Qüvvələrin şəxsi heyəti və mülki əhali arasında itki yoxdur.

Silahlı Qüvvələrimizin ön xətt bölmələrinin adekvat cavab tədbirləri nəticəsində düşmən susdurulub.

Müdafiə Nazirliyi xəbərdar edir ki, Ermənistan silahlı qüvvələri bölmələrinin bu cür təxribatları təkrarlanarsa, Azərbaycan Silahlı Qüvvələri uzaq məsafədəki hədəfləri vuran artilleriya sistemlərini tətbiq etməklə düşmən müdafiəsinin dərinliyindəki yaşayış məntəqələrini atəşə tutacaq.

## Ermənistan silahlı qüvvələrinin cəbhə xəttindəki video-müşahidə vasitəsi ələ keçirilib



*Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttində, düşmən mövqelərindən birində quraşdırılmış video-müşahidə vasitəsi bölmələrimiz tərəfindən xüsusi üsulla ələ keçirilib.*

Qurğunun ilkin araşdırılması nəticəsində onun hava şarı (zond), kiçik həcmli paraşüt, penoplast qutunun içərisinə yerləşdirilmiş kamera, müxtəlif ötürücü antena və naqillərdən ibarət olmaqla kustar üsulla hazırlandığı müəyyən edilib.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin qoşunların qarşıdurma xəttindəki postlarının guya ABŞ istehsalı olan ən müasir video-müşahidə vasitələri ilə təmin olunması barədə verdikləri bəyanatların mif olduğu və Ermənistanın daxili auditoriyasına hesablandığı bir daha təsdiqlənib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Artilleriyaçıların hazırlığı möhkəmlənir





(Əvvəli 1-ci səhifədə)

Doğrusu, bu baxımdan artilleriya divizionunda gördüyümüzlə fəxr etməyə dəyər. İllərdir ki, ölkə rəhbərliyinin orduya göstərdiyi böyük diqqət və qayğının nəticəsini görmək mümkün idi. Təzə avtomobillər, artilleriya qurğuları, şux geyimli topçular Silahlı Qüvvələrimizin əbəs yerə Cənubi Qafqazın ən güclü ordusu hesab edilməyini bariz şəkildə göstərir. Ölkə rəhbərliyinin ordu quruculuğuna verdiyi önəm, qoşunlarımızın maddi-texniki təminatı artıq bu gün hərbi hissələrimizin fəaliyyətində ürəkaçan reallığa çevrilib, döyüş hazırlığının daha da yüksəldilməsinə səbəb olub.

Sıra baxışından sonra komanda ilə bölmələr döyüş mövqeyi tutmaq üçün hərəkətə gəldilər. Avtomobillər müəyyən edilmiş məkanda əsas atəş mövqeyinə gəlib çıxdılar. Verilən komandaları ucadan təkrar edə-edə heyət üzvləri topları döyüşə hazır vəziyyətə gətirirlər. Belə heyətlərdən birinin fəaliyyətini yaxından izləmək imkanımız oldu.

- Döyüşə! - komandası verilən kimi top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elşad Abdıyev heyət üzvlərinə əmri təkrar səsləndirdi.

Tapşırıq yerinə yetiriləndə hiss edirsən ki, heyət nəfərləri öz vəzifə borclarını mükəmməl öyrəniblər.

Hər bir heyət üzvü dərhal əmri yerinə yetirməyə başladı və topçular vəzifə bölgüsünə uyğun hərəkət edərək qurğunu döyüşə hazır vəziyyətə gətirməyə tələsdilər. Baş tuşlayıcı əsgər Xaliq Qəmbərov optik cihazı cəld qılafından çıxarıb nişangahın səbətciyinə bərkitdi. Və sıfır vəziyyətə gətirdi. Xaliq Ağdam rayonundan hərbi xidmətə çağırılıb, artıq o, əsl topçu kimi yetişib və vəzifələrini yetərincə mənimsəyib. İyulda hərbi xidmətini başa vurmağa hazırlaşır.

Digər topçular çevik hərəkətlə qundaq qolunu açdılar. Klini "döyüş" vəziyyətinə gətirdikdən sonra onlar topun arxasında öz yerlərini tutdular. Top komandiri dərhal bayrağı qaldırıb heyətin döyüşə hazır olduğunu bildirdi.

Çaxmaqçı heyət nəfəri əsgər Rüfət Fətəliyev bir il üç aydır hərbi xidmətə çağırılıb, digər heyət nəfəri Xəyyam Talıblı on aydır hərbi xidmətdədir. Əslən Bakıdandır, atıcı Xəyal Məmmədov isə Füzuli rayonundandır, altı aydır ki, ordu sıralarındadır. Müxtəlif çağırış dövründə orduya gələnlər də, kollektivin mehriban üzvlərinə çevriliblər, ümumi uğur naminə bilik və bacarıqlarını əsirgəmirlər. Topu döyüşə hazırlayarkən onlar öz bacarıqlarını bir daha nümayiş etdirdilər.

Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına uyğun il ərzində nəzərdə tutulan tədbirlər qrafikə uyğun həyata keçirilməkdədir. Gündəlik döyüş hazırlığı məşğələlərində topçular ixtisas, taktiki və atış bacarıqlarını artırmaqla məşğul olurlar. Artilleriyaçılar bu məşğələlərdə silahların taktiki-texniki xüsusiyyətlərini həvəslə öyrənir, doldurucudan tutmuş tuşlayıcılara qədər, heyətdən tutmuş diviziona qədər vahid mexanizm kimi hərəkət etmə vərdişlərini mənimsəyirlər. İstənilən zaman həyəcan siqnalı ilə divizion istənilən cəmləşmə rayonuna çıxmağa və döyüş aparmağa qadirdir.

Döyüş hazırlığı dərslərində, məşq və təlimlərdə əgər şəxsi heyət yüksək ixtisas və taktiki hazırlığa yiyələnirsə, yəni, öz gücünə və döyüş bacarığına inam qazanırsa, deməli, həm də mənəvi-psixoloji hazırlığını artırır. Eyni zamanda hərbçi olaraq Vətəni qorumağın şərəfli peşə sayıldığını, Azərbaycanımıza xidmət etməyin hər bir vətəndaşın müqəddəs borcu olduğunu əsgərlərə başa salmaq, torpaqlarımıza təcavüz etmiş düşmənə nifrət tərbiyə etmək komandir heyətinin başlıca vəzifəsidir. Ona görə topçularımızın döyüş ruhu yüksəkdir və onlar qarşılarına qoyulan tapşırıqları yerinə yetirməyə qadirdirlər.

- Hazırda atəş mövqeyi tutulub, - batareyanın baş zabiti, birinci artilleriya taqımının komandiri baş leytenant Əfqan İsmayılov dedi. - Atəş aparmağa hazırlıq haqqında atəşi idarəetmə məntəqəsinə, yəni, divizionun qərargah rəisinə məruzə edilib. Növbəti komandaları gözləyirik.

Bölmələr yarışın şərtlərinə uyğun olaraq atış hazırlıqlarını nümayiş etdirirlər.



Azərbaycan Ordusunun dünyanın ən müasir ordularından olmasının daha bir nümunəsini "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışda bir daha gördük. Aprel döyüşlərində ordumuza məxsus pilotsuz uçuş aparatları havada düşmən üzərində üstünlüyümüzü təmin etmişdi. Bu gün PUA-lardan dünyanın qabaqcıl ordularında geniş istifadə edilir və bu uçuş aparatları Silahlı Qüvvələrimizdə də döyüş hazırlığı prosesinin ayrılmaz tərkib hissəsidir. Yarış zamanı məhz PUA-ların köməyilə müvafiq imitasiyalardan sonra artilleriya atəşinə korrektə edilirdi. Bu da topların hədəfləri dəqiqliklə məhv etməsi üçün mühüm amil kimi dəyərləndirilir.

- Divizion birliyin ən yaxşı divizionu adına layıq görüldüyü üçün bu yarışlara qatılıb, - zabit Vəli Ələsgərov bizimlə söhbətində dedi. - Bu kollektiv həmişə yüksək döyüş bacarığı ilə fərqlənib. Bölmə əvvəllər də "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışda iştirak edib və yüksək yerlər tutub. İndi də şəxsi heyət döyüş hazırlığı dərsləri və praktik məşğələlərdə qazandıqları bilik və bacarıqlarını nümayiş etdirir. Kollektivin qazandığı uğurlarda, təbii ki, ilk növbədə zabitlərin zəhmətini qeyd etmək yerinə düşər. Zabitlərdən Ramil Qasımov, Rəşad Rəşidov, Mirqafar Ələkbərov, Əfqan İsmayılov və başqalarını nümunə göstərmək olar. Belə zabitlər şəxsi heyətin döyüş ustalığını artırmaq üçün əllərindən gələni əsirgəmirlər. Onların rəhbərliyilə topçular həvalə edilmiş qurğuları lazımınca mənimsəyiblər və praktik olaraq onlardan istifadə etməyi bacarırlar.

Qəflətən ərazidə "mərmilər" partlayır, divizion üçün həyəcan siqnalı verilir. Komanda ilə bölmələr çevik qaydada topları "səfər" vəziyyətinə gətirərək atəş mövqeyini tərk edir. Bütün şəxsi heyət əraziyə çıxaraq yenidən atəş mövqeyi tutur, verilən komandalara uyğun tapşırıqları yerinə yetirir. Burada da bölmələrin fəaliyyəti yoxlanılır və normativlərin yerinə yetirilməsi yuxarı komandanlığın nümayəndələri tərəfindən qeyd edilir.

- Artilleriyaçılar bütün tapşırıqları yarış zamanı ustalıqla icra etdilər, - zabit Rəşad Rəşidov yarış yekunlaşdıqdan sonra dedi. - Əvvəlcə əsas atəş mövqeyində, sonra ehtiyat atəş mövqeyinə çıxaraq topçular meteo şərait nəzərə alınmaqla tapşırıqları icra etdilər. Hesab edirəm ki, öz vəzifələrinin öhdəsindən bacarıqla gəlməyi bacardılar. Top komandirlərindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Vüqar Mahmudov, Müşfiq Məsiyev, Elşad Abdıyev və başqaları heyətlərilə birlikdə yüksək hazırlıq nümayiş etdirdilər.

Təxminən bir həftə davam edən yarışlara Əlahiddə Ümumqoşun Ordusunun, bütün birliklərin ən yaxşı artilleriya bölmələri cəlb ediliblər. Onların yarışda göstərdiyi nəticələr yekunda dəyərləndiriləcək və ən hazırlıqlı bölmələr qaliblər sırasında yer alacaqlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# NATO qiymətləndirməsi üzrə "Qaraheybət-2017" təlimində Yüksək Səviyyəli Qonaqlar Günü



*Bakı şəhərində Azərbaycan Respublikasının Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində ƏİK Ortaq Qüvvələr Birliyinə bəyan etdiyi motoatıcı taborunun növbəti dəfə 2-ci səviyyəli NATO qiymətləndirmə təlimi başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ƏİK taboru 2014-cü ildə 2-ci səviyyəli NATO qiymətləndirmə təlimini müvəffəqiyyətlə keçmiş və NATO-nun "Döyüşə hazır" sertifikatını almışdır. Hazırda seritifikatın təsdiq edilməsi məqsədilə Qaraheybət Təlim Mərkəzində keçirilən səhra təliminə Silahlı Qüvvələrin 700 nəfərə yaxın şəxsi heyəti, 80-dək hərbi texnikası və 4 helikopteri cəlb olunub.

Taborun qiymətləndirilməsi çoxmillətli qiymətləndirmə heyəti tərəfindən həyata keçirilir və NATO-nun Quru Qoşunları Komandanlığını təmsil edən Müşahidə Heyəti tərəfindən müşahidə olunub.

* * *

İyunun 1-də Qaraheybət Təlim Mərkəzində davam edən NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin motoatıcı taborunun 2-ci səviyyəli NATO qiymətləndirmə təlimində Yüksək Səviyyəli Qonaqlar Günü keçirilib.



Yüksək Səviyyəli Qonaqlar Günü təlimi Müdafiə Nazirliyinin general heyəti ilə birgə Türkiyə Respublikasının İzmir şəhərində yerləşən NATO-nun Quru Qoşunları Komandanlığının Qərargah rəisi diviziya generalı Erhan Uzun və ölkəmizdə akkreditə olunmuş 20-dən artıq xarici dövlətin hərbi attaşesi izləyiblər.

Həmin gün qonaqlar "N" hərbi hissəsində də olaraq burada yaradılan şəraitlə tanış olublar.

Təlim bu gün sona çatacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi Akademiyada elmi-praktik konfrans

*Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində "Ümummilli lider Heydər Əliyevin liderlik xüsusiyyətləri" mövzusunda elmi-praktik konfrans keçirilib.*



Konfransın əvvəlində ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Plenar iclaslarla başlanan elmi konfransda "Komanda mühiti", "Mərkəzləşdirilməmiş komanda və nəzarət", "Etik qərar qəbuletmə", "Liderlik və hərbi peşəkarlıq" və sair mövzularda elmi məruzələr dinlənilib.

Konfransın əsas iclasında general-leytenant Heydər Piriyev, general-mayor Rasim Əliyev, Amerika Birləşmiş Ştatlarının Norfolk Birləşmiş Qüvvələr Qərargahı Akademiyasının doktoru Con Bauer və tarix elmləri doktoru ehtiyatda olan polkovnik Mehman Süleymanovun mövzularla bağlı məruzələri dinlənilib.

Konfrans əsas iclasdan sonra öz işini başa çatdırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Aydın Mirzəzadə: ABŞ Prezidenti Azərbaycanda gedən islahatlara yüksək qiymət verir

*Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın həm 28 May - Respublika Günü, həm də XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransı ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktublar bu gün iki ölkə arasında olan münasibətlərin keyfiyyət göstəricisidir.*

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.

Aydın Mirzəzadə bildirib ki, əvvəlki administrasiyadan fərqli olaraq Donald Tramp Azərbaycanda gedən islahatlara yüksək qiymət verir. Bu da Azərbaycan üçün çox önəmlidir. ABŞ Prezidenti Azərbaycanla öz ölkəsi arasında ikitərəfli əlaqələrin möhkəmlənməsinə böyük önəm verdiyini və əlaqələrin genişlənməsində maraqlı olduğunu vurğulayır.

"Azərbaycan Ermənistandan başqa bütün ölkələrlə qarşılıqlı maraqlar əsasında əlaqələrin qurulmasına önəm verir. Müstəqilliyini bərpa etdiyi 25 illik müddətdə Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə münasibətlərin, demək olar ki, bütün sahələrini əhatə edən əməkdaşlıq təcrübəsi var. Həmin əlaqələri daha da genişləndirmək və dərinləşdirmək mümkündür. Bu, həm siyasi, iqtisadi, diplomatik, həm də hərbi əməkdaşlığı özündə birləşdirir", - deyə deputat qeyd edib.

Aydın Mirzəzadə deyib ki, iki ölkə birlikdə beynəlxalq aləmdə stabilliyin qorunması, sülhün təmin edilməsi, terrorizmə qarşı mübarizə istiqamətində böyük işlər görə bilərlər. Azərbaycan ABŞ-la münasibətlərində onun Dağlıq Qarabağ probleminin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədri olması faktını da ciddi nəzərə alır. Birləşmiş Ştatlar bu statusundan istifadə edərək problemin həllinə böyük töhfə verə və Ermənistanı beynəlxalq hüquq normalarına riayət etməyə, Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağıra bilər. Hər iki məktub göstərir ki, ABŞ-ın yeni administrasiyası dünyada ölkələr arasında tamam yeni və ümumi maraqlara xidmət edən aspektlərin qurulmasında maraqlıdır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı qüvvələrinin atəş nöqtəsi məhv edilib

**31 may 2017-ci il.**

Cəbhənin Füzuli-Xocavənd istiqamətində mövqelərimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin uzunmüddətli atəş nöqtəsi bölmələrimiz tərəfindən məhv edilib.

Düşmən itkilərə məruz qalıb.

## Ermənistan silahlı qüvvələrinin iki hərbi obyekti dağıdılıb

**1 iyun 2017-ci il.**

Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttində, düşmənə məxsus bölmənin mühafizə olunan komanda-müşahidə məntəqəsi və müşahidə qülləsinin optik qurğusu bölmələrimiz tərəfindən atəşlə dağıdılıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**2 iyun 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 126 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Yusifcanlı, Mərzili, Tağıbəyli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qorqan, Qaraxanbəyli, Kürdlər, Aşağı Veysəlli və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Cəmiyyətin gələcək inkişafının əsasını uşaqlar təşkil edir. Daim qayğıya, şəfqətə ehtiyac duyan balacaların hüquqlarının qorunması, onların layiqli vətəndaş kimi formalaşdırılması hər bir dövlətin başlıca sosial vəzifələrindəndir. Uşaqların Beynəlxalq Müdafiəsi Günü respublikamızın bir çox təşkilatlarında olduğu kimi, "N" hərbi hissəsində də böyük coşqu ilə qeyd olundu. Tədbirdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Sumqayıt Regional Mədəniyyət və Turizm idarəsinin nəzdindəki şəhər mədəniyyət evinin, "Yasəmən" uşaq bağçasının kollektivləri və məktəblilər iştirak edirdi.*

# Gələcək uşaqlarındır



Öncə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən Milli Qəhrəman general-leytenant Rövşən Əkbərov əlamətdar gün münasibəti ilə uşaqları təbrik edərək bildirdi ki, 1 iyun dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. "Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Ölkəmizdə uşaqların sağlam, hərtərəfli, Vətənə layiqli övladlar kimi böyümələri üçün hər cür şərait yaradılıb. Onların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün ölkəmizdə zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşmasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır" kəlamı bizlərə məsuliyyətimizi xatırladır. Uşaqlara qayğı təkcə dövlətin üzərinə düşən vəzifə deyil. Hər bir şəxs uşaqların hərtərəfli böyüdülməsi üçün səy göstərməlidir. Çünki uşaqlar təkcə bir evin deyil, bütün elobanın ən qiymətli, ən dəyərli sərvəti, hər bir xalqın gələcəyidir. Gələcəyimizi qorumaq isə hamımızın borcudur", - deyə general çıxışında bildirdi.

- 1950-ci il iyunun 1-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər irəli sürülüb, - Sumqayıt Regional Mədəniyyət və Turizm idarəsinin nəzdindəki şəhər mədəniyyət evinin direktoru Elnarə Rəşidova dedi. - Həmin tarixdən etibarən dünyanın əksər ölkələrində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur... Azərbaycanda uşaqların müdafiə olunması və onlara qayğı göstərilməsi istiqamətində də son illər ərzində məqsədyönlü işlər görülüb. Ölkəmizdə uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Konstitusiya, qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd isə 1998-ci il mayın 19-da qəbul edilmiş "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunudur.

Sumqayıt şəhər mədəniyyət evinin təşkil etdiyi rəsm sərgisini, "Narbala" kukla teatrının hazırladığı tamaşanı maraqla izləyən uşaqlar daha sonra sevimli cizgi qəhrəmanları Maşa və ayı ilə görüşdülər, vətənpərvərlik, qəhrəmanlıq ruhlu şeirlər söylədilər.

Son illər Azərbaycanda uşaqların təlim-tərbiyəsinin daha da təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən məktəb direktoru Turə Qasımova Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqların problemlərinə böyük diqqət və qayğı ilə yanaşdıqlarını bildirdi. "Gələcəyimizin təminatı olan uşaqlar vətənpərvər ruhda böyüyürlər. Ordumuzun aprel zəfəri isə onlarda Qələbəmizə inamı daha da gücləndirib. Artıq bir ildən çoxdur ki, məktəblilərin əsgərlərimizə yazdıqları məktubları davamlı olaraq ön cəbhəyə göndəririk. Onlar tezliklə Şuşaya, Cıdır düzünə, Kəlbəcərə və digər işğaldan azad ediləcək torpaqlarımıza ekskursiyaya gedəcəklərinə inanırlar".

"Yasəmən" uşaq bağçasının müdiri Gülüş Quliyeva isə çıxışında qeyd etdi ki, müharibə dövründə yaşayan balacaların ən böyük arzusu Vətənə əsgər olmaqdır. Bu sevgi ilə böyüyən uşaqların əzəli torpaqlarımızın işğaldan azad edilməsinə öz töhfələrini verəcəklərinə inanırıq...

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin şən mahnı və rəqsləri biri-birini əvəz etdikcə, uşaqların sevinci yerə-göyə sığmırdı. Tədbir birliyimizin və həmrəyliyimizin simvolu olan "Yallı" rəqsi ilə başa çatdı.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu", foto çavuş Namiq PƏNAHOVUNDUR**

# NATO nümayəndəsi Azərbaycan sülhməramlıları ilə görüşüb



Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin motoatıcı taborunun 2-ci səviyyəli NATO qiymətləndirməsi təlimi ilə əlaqədar ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının İzmir şəhərində yerləşən NATO-nun Quru Qoşunları Komandanlığının Qərargah rəisi diviziya generalı Erhan Uzun Azərbaycan sülhməramlıları ilə görüşüb.

Görüşdə beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasında ölkəmizin səylərini xüsusi qeyd edən diviziya generalı E.Uzun Azərbaycanın NATO ilə əməkdaşlığını, beynəlxalq sülhməramlı əməliyyatlara verdiyi töhfəsini və sülhməramlı əməliyyatlarda azərbaycanlı hərbçilərin peşəkarlığını da yüksək qiymətləndirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Hərbi Dəniz Qüvvələrində tədbir

*Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması sahəsində 2017-ci il üçün imzalanan birgə tədbirlər planına əsasən, mayın 31-də Hərbi Dəniz Qüvvələrində tədbir keçirilib.*

Ədliyyə polkovnik-leytenantı, kriminalist İsrail Əsgərov hərbi dənizçilər qarşısında çıxış edərək, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, ordu quruculuğuna mənfi təsir edə biləcək cinayət hadisələrinin təhlili və nəticələrindən asılı olaraq müvafiq tədbirlərin görülməsi və digər məsələlərdən danışıb.

Görüş zamanı müxtəlif mövzularda təkliflər səsləndirilib və hərbi qulluqçuları maraqlandıran bir sıra suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Mariya Zaxarova: Azərbaycan və İranla münasibətlərimiz bizim üçün çox dəyərlidir

"Azərbaycan və İranla münasibətlərimiz bizim üçün çox dəyərlidir və hər hansı pozitiv və ya neqativ təsirlər bu münasibətlərdə əks olunmamalıdır. Biz bunu əsas götürürük ki, həmin ölkələrin hər biri ilə münasibətlərimiz bizim üçün dəyər kəsb edir".

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu sözləri Moskvada keçirilən brifinqdə ABŞ-ın antiiran siyasətinin Rusiya-Azərbaycan-İran triumviratı daxilində münasibətlərin inkişafına hər hansı şəkildə təsir göstərib-göstərməyəcəyi barədə suala cavab olaraq söyləyib.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.*

**Suallar:**
**1. Heydər Əliyev xalqımızın Ümummilli Lideridir.**
**2. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

*Heydər Əliyev xalqımızın Ümummilli Lideridir*

Tarix səhnəsində elə insanlar meydana gəlir ki, öz istedadları, bacarıqları sayəsində bəşəriyyətdə tanınırlar.

XX əsrin 70-ci illərində Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyevin yüksək təşəbbüskarlığı, müdrik siyasəti, səy və bacarığı sayəsində Azərbaycan, sözün həqiqi mənasında, intibah dövrünü yaşamışdı. Həmin illər Azərbaycanın yüksəliş dövrü idi. Bu, o vaxtlar idi ki, Azərbaycan Respublikası Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan - Kremldən idarə olunurdu. Lakin ümummilli lider Heydər Əliyev məmləkətimizin çiçəklənməsi və inkişafı naminə mərkəzin diqqətini, qayğısını ölkəmizə yönəldə bilmişdi.

Təxminən 24 il əvvəl təsəvvürə gətirmək çətin və həm də ağlasığmaz idi ki, Azərbaycanda iqtisadiyyatın istiqamətini dəyişdirib lazımi məcraya yönəltmək, ölkəni qarışıqlıqdan və dağıntılardan çıxarmaq, durğunluğu aradan qaldırmaq, ictimai inkişaf üçün əlverişli şərait yaratmaq, Azərbaycanın regional və dünya səviyyəsində siyasi və iqtisadi mövqelərini belə tezliklə gücləndirmək mümkün olacaqdır. Lakin ümummilli lider Heydər Əliyev Bakıya qayıdarkən bu məqsədləri qarşıya qoydu və onları on il ərzində gerçəkləşdirə bildi.

Görkəmli dövlət xadiminin son dərəcə gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyuldu, ölkədə cinayətkarlığın qarşısı alındı, bütün qanunsuz silahlı dəstələr ləğv olundu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratdı. Müstəqilliyimizin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində alındı, dövlətçiliyimiz möhkəmləndirildi. Ölkəmizdə dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın ilk Konstitusiyası təşkil edirdi. Ümumiyyətlə, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dahi rəhbərin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdu. Ümummilli lider Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Onun sürətli fəaliyyətində iqtisadi islahatlar, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olub.

Bugünkü Azərbaycan ulu öndər Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Məhz onun yaratdığı siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkə XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inamla inkişaf etdirir. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirir.

Prezident İlham Əliyev dövlət başçısı kimi Nazirlər Kabinetinin ilk iclasındakı dərin məzmunlu və proqram əhəmiyyətli çıxışında demişdir: "Hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin. Əlbəttə, ilk növbədə, hamı insanlara böyük diqqətlə yanaşmalıdır. Biz Azərbaycan xalqı üçün işləyirik".

Ordu quruculuğu dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi uzun və mürəkkəb bir prosesdir. Bu sahədə fəaliyyəti tənzimləmək üçün 1991-ci il oktyabrın 9-da Ali Sovet tərəfindən ilk hüquqi-normativ sənəd - "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Qanun qəbul edildi. Qısaca onu demək olar ki, ordu quruculuğunun bu dövrü çox mürəkkəb bir ictimai-siyasi və tarixi şəraiti əhatə edir.

Ordu quruculuğunun əsas mərhələsi 1993-cü ilin noyabrında ümummilli lider Heydər Əliyevin televiziya və radio ilə xalqa müraciətindən sonrakı dövrü əhatə edir. Ali Baş Komandan Heydər Əliyevin Azərbaycan Silahlı Qüvvələri quruculuğu istiqamətində apardığı işlərin məntiqi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi baş verdi.

Yüksək diqqət və qayğının nəticəsində ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi. Nizami strukturlar yaradılaraq, hərtərəfli islahatlar aparıldı. Ölkə rəhbərliyi orduda mənfi halların aradan qaldırılması, mənəvi-psixoloji mühitin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər gördü, ordu quruculuğu elmi əsaslarla aparıldı, Silahlı Qüvvələrimizin müasir standartlara cavab verməsi üçün hərbi islahatlar həyata keçirilməyə başlandı. Hərbi intizamın, vahid rəhbərliyin möhkəmləndirilməsi, hissə və birləşmələrdə döyüş hazırlığının yüksəldilməsi, ordunun maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığına dövlət səviyyəsində xüsusi diqqət yetirilməsi qısa vaxtda öz bəhrəsini verdi. Ölkəmizdə müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı istiqamətində əhəmiyyətli tədbirlər bu gün də uğurla həyata keçirilir.

Ulu Öndər tərəfindən yaradılmış C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və bütövlükdə Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır.

Hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman da imzalandı.

1997-2001-ci illərdə zabit heyətini təkmilləşdirmə kurslarının, gizir hazırlığı məktəbinin, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının (27.02.2004-cü ildən Heydər Əliyev adına Hərbi Lisey), ehtiyat zabitlərin hazırlığı kursunun və Azərbaycan Tibb Universitetində hərbi tibb fakültəsinin yaradılması da Silahlı Qüvvələrin peşəkar, bilikli, Vətəninə sadiq hərbçilərlə təmin edilməsində böyük əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi 2002-ci ilin iyulunda Naxçıvandakı "N" hərbi hissəsində çıxışı zamanı demişdir: "Mən inanıram ki, Azərbaycan Ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o, Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və qələbə qazanacaqdır".

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır*

Bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir. Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm, nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və ordunun peşəkar zabit kadrlarına olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına yeni Hərbi Lisey yaradıldı.

Bu gün ərazisinin 20 faizi işğal altında olan, mühüm geostrateji məkanda yerləşən və zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycanın Silahlı Qüvvələri döyüş qüdrətini artırmaqla Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyacağı hər bir tapşırığı yerinə yetirməyə həm peşəkar, həm də mənəvi-psixoloji baxımdan hazır olmaq üçün güc və enerjisini əsirgəmir. Tam əminliklə demək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimiz günü-gündən möhkəmlənir və mətinləşir. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev "N" hərbi hissəsinin əsgər və zabitləri ilə görüşündə demişdir: "Azərbaycan bölgədə ən güclü orduya malik olan ölkədir. Burada bütün cəhətlərdən - həm peşəkarlıq baxımından, həm də texnika baxımından ən güclü hərbi potensial bizdədir, ən güclü ordu bizdədir".

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Azərbaycanın hərbi potensial baxımından Ermənistandan hazırkı üstünlüyü heç də birdənbirə, təsadüfən meydana gəlməyib. Son 15 ildə Azərbaycan rəhbərliyi belə bir düsturu özünün əsas fəaliyyət prinsipinə çevirib ki, hər bir ölkənin uğurunu, inkişafını müəyyən edən amillər içərisində iqtisadi potensial və güclü ordunun mövcudluğu ön plandadır. Müasir səviyyədə qurulan ordu həm müstəqilliyin möhkəmlənməsində, həm də ölkənin bölgədə geopolitik güc mərkəzinə çevrilməsində önəmli rol oynayır. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "... Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq... Son illər ərzində maddi texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

Azərbaycan öz ordusunun gücünü, kadrların hərbi peşəkarlığını daim artırır, hərbi qüdrətini yüksəldir. NATO ilə sıx və səmərəli əməkdaşlığın əsas hədəfi də məhz ordu quruculuğu prosesini sürətlə təkmilləşdirmək, Silahlı Qüvvələri modernləşdirmək, müasir standartlara uyğunlaşdırmaqdır. Yekun məqsəd, başlıca niyyət isə, heç şübhəsiz, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Qarabağın və ermənilərin zəbt etdikləri bütün bölgələri düşməndən təmizləməkdir. Artıq bu qəti mərhələyə doğru gedən yolda hərbi və siyasi baxımdan xeyli mühüm nəticələr əldə olunub və bu proses davam etməkdədir.

Aprel döyüşlərində ordumuzun əldə etdiyi uğurlar bunun bariz nümunəsidir.

Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır.

Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını sübut etdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək.

Bu gün Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü özündə saxlayır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, xalq-ordu birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən prioritet məsələdir.

Bu gün Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə və ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Naxçıvanda futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnir başa çatıb

*Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnirdə "Araz-Naxçıvan", "Mil-Muğan", "Mərkəzi Ordu İdman Klubu" və "Zaqatala" komandaları mübarizə aparıblar.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 30-da Muxtar Respublikanın Stadionunda "Araz-Naxçıvan" və "Mərkəzi Ordu İdman Klubu" arasında futbol üzrə "Heydər Əliyev kuboku"-nun son turunun görüşü keçirilib.

Yarışdan əvvəl Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının, eləcə də müğənnilərdən Sevinc və Sevil Səfərovaların ifasında konsert proqramı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov turnirin son oyununu izləyib.

Gərgin idman mübarizəsi və dostluq şəraitində keçən oyun "Mərkəzi Ordu İdman Klubu"nun 1:0 hesablı qələbəsi ilə başa çatıb və komanda futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən turnirin qalibi olub. "Mil-Muğan" komandası turnirdə ikinci yerə, "Araz-Naxçıvan" isə üçüncü yerə çıxıb.

Oyundan sonra mükafatlandırma mərasimi keçirilib.

Əvvəlcə turnirdə oyunları idarə edən hakimlərə mükafatlar verilib, turnirin təşkilində xidmətlərinə görə Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayevə isə xatirə hədiyyəsi təqdim olunub. Oyunların nəticələrinə görə "Ən yaxşı gənc futbolçu", "Ən məhsuldar futbolçu", "Ən yaxşı qapıçı" və "Ən yaxşı futbolçu" nominasiyalarında mükafatlar verilib.

Sonra ikinci yerə çıxan "Mil-Muğan" komandasına gümüş, üçüncü yerin sahibi "Araz-Naxçıvan" komandasına isə bürünc medallar təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən turnirin qalibi olan "Mərkəzi Ordu İdman Klubu"na qızıl medalları və kuboku təqdim edib.

Ali Məclisin sədri turnirdə mübarizə aparan komandaların oyunçuları ilə görüşüb, onlara təşəkkürünü bildirib və komandalarla xatirə şəkli çəkdirib.



## Ovqat

# Döyüşçü dostunun adını oğluna qoydu...

...Bayaqdan bəri gözünü üzümdən çəkməyən orta yaşlı kişini tanıdım. Firdovsiydi. Keçmiş döyüşçü...

1993-cü ilin dekabrında əsgərlərimiz Haramı düzündə ermənilərin bir neçə tankını vurmuş, xeyli canlı qüvvəsini məhv etmişdi.

Firdovsinin ürəyi dolu idi:

- Bir neçə gündən sonra erməni işğalçıları itkilərinin əvəzini çıxmaq üçün güclü əks-hücuma keçdilər. Əvvəlcə mövqelərimiz toplardan atəşə tutuldu, - keçmiş döyüşçü ötənləri xatırladı. - Amma kiçik bir hücumla bizi geri oturtmaq mümkün deyildi. Artilleriya atəşindən sonra qarşımızda düşmən piyadaları göründü. Bir az yaxına buraxdıqdan sonra qəflətən zərbə endirdik. Düşmən bu həmləni gözləmədiyindən başını itirdi. Bizə də bu lazım idi. Həmin gün ağır yaralandım. Güllə sağ çiynimi dəlib keçmişdi. Uzun müddət müalicə olunsam da, sağlamlığım bərpa olunmadı. Yenidən cəbhə bölgəsinə qayıda bilmədim.

Firdovsinin oğlu ora-bura qaçırdı. Söhbətinə ara verən ata onu yanına çağırıb çox uzaqlaşmamağı tapşırdı.

Bu dəcəl uşaqdan xoşum gəldi. Başına sığal çəkib adını soruşdum:

- Cəlaldır, - dedi.

- Cəlal mənim döyüşçü dostumun adı idi. Oğluma da onun adını qoymuşam. Bunu rəhmətlik mərdən özü xahiş etmişdi, - Firdovsi alnını ovxalayıb dilləndi. - Cəlal çox igid və cəsur bir əsgər idi. Onunla Ağdam, Kəlbəcər və Füzuli rayonları uğrunda gedən döyüşlərdə bir səngərdə vuruşmuşduq. Yadıma gəlir, ermənilər Ağdam istiqamətində hücumlarını gücləndirəndə bizi də köməyə göndərdilər. Düşmən Muğanlı kəndini atəş altında saxlayırdı. Gərgin vəziyyət yaranmışdı. Kəndi qoruyan döyüşçülərin həyatı təhlükədəydi, yağılar onları əsir götürməyə çalışırdılar. Cəlal heç kəsin gözləmədiyi təhlükəli bir səmtdən kəndə girib qumbaraatanla ermənilərin mövqelərinə bir neçə dəqiq zərbə endirdi. Döyüşçülərimiz mühasirədən çıxdılar. Cəlal Cəvahirli kəndində ağır yaralandı. Həmin gün də, sonrakı vaxtlarda da qanlı döyüşlər oldu. Torpaqlar addım-addım ermənilərin əlinə keçirdi.

- Bəs Cəlal?

- Bir neçə gündən sonra hospitala gedib ona baş çəkdik. Cəlalın vəziyyəti ağır olsa da, çöhrəsi gülürdü, döyüşə can atırdı. Çox keçmədi ki, sağalıb hərbi hissəyə qayıtdı. Həmin vaxtlar biz Haramı düzündə mövqe tutmuşduq. Bir neçə gündən sonra düşmən gözlənilmədən zirehli texnikalarla hücuma keçdi. O gün işğalçıların yeddi tankı məhv edildi. Düşmənin iki zirehli texnikasını Cəlal vurdu. Qanlı döyüş üç gün ara vermədi...

Bir gün Cəlalla söhbət edirdik. Dostum mənə dedi:

- Firdovsi, sevdiyin varmı?

Nişanlı olduğumu eşidəndə gülümsündü. İti baxışlarını uzaqlara dikib dedi:

- Son günlər vəziyyət gərginləşib. Mən də nişanlıyam. İnşallah, hansımız müharibədən sağ çıxıb ailə həyatı qursaq, oğlumuza bir-birimizin adını qoyaq...

Çarəsizliklə gülümsündüm.

Soyuq bir qış günündə başıma gələn dəhşətli hadisə ömrüm boyu məni yandıracaq. Yanvarın ilk həftəsində Cəlalı itirdim.

Onun faciəli ölümündən sarsıldım.

Kövrəldi. Sonra özünü ələ alıb sözünə davam etdi.

- Rəhmətlik həmişə deyirdi ki, Firdovsi, müharibə qurtarandan sonra birlikdə biz tərəflərə gedərik. Görməli yerləri gəzib dolanarıq. Təəssüf ki, bu, ona qismət olmadı. Cəlalın ölümündən altı ay sonra döyüşçü dostlar bir yerə yığışıb Göyçay rayonuna - Cəlalın məzarını ziyarət etməyə getdik...

Ailə həyatı qurdum. İlk övladım oğlan oldu. Adını Cəlal qoydum. Uşağın ayağı yer tutan kimi onu Göyçaya apardım. "Balaca Cəlal sizin də övladınızdır," - dedim. Cəlalın atası da, anası da uşağı öpüb oxşadılar. Saab ana diqqətlə uşağa baxanda heyrətini gizlədə bilmədi:

- Aman Allah, Cəlalımın körpəliyinə necə oxşayır. Elə bil bir almanı iki yerə bölüblər…

**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə helikopter qəzasında həlak olan hərbçilər dəfn edilib



İyunun 1-də Ankarada Sərhəd Diviziya komandiri, general-mayor Aydoğan Aydın üçün vida mərasimi təşkil olunub.

Vida mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Baş nazir Binəli Yıldırım, hökumətin digər üzvləri, millət vəkilləri, siyasi partiya rəhbərləri, ölkə ictimaiyyətinin tanınmış simaları iştirak ediblər.

Qeyd edək ki, şəhid general-mayor Aydoğan Aydın mayın 31-də Ankara vaxtı ilə 20:55-də Türkiyənin Şırnak vilayətində hərbi helikopterin qəzaya uğraması nəticəsində həlak olan 13 hərbçi arasında olub. Digər şəhidlər üçün də vida mərasimləri təşkil olunub.

### Dubayda partladıcı qurğuları dronlar zərərsizləşdirəcək



Dubay polisi partladıcı qurğuların zərərsizləşdirilməsi üzrə əməliyyatlarda məsafədən idarə olunan su topu ilə təchiz edilmiş pilotsuz uçuş aparatlarından istifadə planlarını açıqlayıb. Yerli KİV-lər Dubay polisinin başçısı, general-mayor Abdulla Xəlifə Əl-Mərrinin bəyanatına istinadla xəbər verir ki, pilotsuz aparatlar istehkamçı dəstənin sərəncamında olacaq.

Bildirilir ki, kamera ilə təchiz edilmiş drondan avtomobillərdə və ya binalarda şüşələrin və pəncərələrin qırılması, habelə partlayıcı maddələrin axtarışı üçün istifadə edilə bilər.

### Səudiyyə Ərəbistanında güclü partlayış olub



Səudiyyə Ərəbistanının şərqində - Əl-Katif şəhərinin küçələrindən birində yerləşən "Mayas" bazarında güclü partlayış olub.

Yerli KİV-lərin yaydığı xəbərə görə, minalanmış avtomobil partladılıb. "Əl-Ərəbiyyə" telekanalının hadisə yerindən yaydığı kadrlarda maşının yanan parçaları və burularaq yüksələn qara tüstü sütunu görünür.

Tələfat barədə məlumat hələlik yoxdur.

### Yaponiyanın özünümüdafiə dəniz qüvvələri ABŞ hərbi gəmiləri ilə birgə təlimlər keçirir



Yaponiyanın Müdafiə Nazirliyi bəyan edib ki, ölkənin özünümüdafiə dəniz qüvvələri Yapon dənizində ABŞ-a məxsus aviadaşıyıcı iki gəmi ilə birgə hərbi təlimlərə başlayıb.

Bəyanatda qeyd edilir ki, təlimlər iyunun 1-də "Ronald Reyqan" və "Karl Vinson" aviadaşıyıcılarının iştirakı ilə keçirilib.

ABŞ hərbi-dəniz qüvvələrinin flaqmanı olan "Ronald Reyqan" gəmisi Yaponiyanın Sakit okeandakı Kanaqava prefekturasındakı dayanacaq yerini bir gün əvvəl tərk edərək təlimlərə qatılmaq üçün Yapon dənizinə gəlib.

Yapon özünümüdafiə qüvvələrinə məxsus "Hyuqa" esminesi də daxil olmaqla iki gəmi, eyni zamanda, F-15 təyyarələri ABŞ-ın 10 gəmisi ilə birlikdə aprelin sonlarından həmin regiondadır. Müdafiə Nazirliyinin rəsmi nümayəndələrinin bildirdiyinə görə, yapon və ABŞ hərbçiləri hər bir gəminin manevr imkanlarını müqayisə etməklə yanaşı, həm də informasiya mübadiləsi aparırlar. ABŞ silahlı qüvvələri Şimali Koreyanın nüvə və raket sınaqları fonunda görünməmiş addım ataraq Yapon dənizinə eyni vaxtda iki aviadaşıyıcı gəmi göndərib. Bu təlimlər Şimali Koreyanın təxribatlarının qarşısını almaq üçün Yaponiya-ABŞ ittifaqının qəti addımlara hazır olduğunu nümayiş etdirir.

**AZƏRTAC-ın materialları əsasında**

**Bəxtiyar Vahabzadə**

### Yaman darıxmışam

Yaman darıxmışam səninçun, yaman!
Mən əsir düşmüşəm öz istəyimə.
Nifrəti gizlətmək asandan asan,
Sevgini gizlətmək mahalmış, demə!

Haraylar yüksəlir könüldən yenə,
Bu necə haraydı, bu necə haydı?
Öhdəmdən gələrdim... Gözüm üzünə
Qulağım səsinə darıxmasaydı...

Yaman darıxmışam... Bu nədir yenə
Ağlım sağa baxır, ürəyim sola.
Ürəyim dönübdür göy göyərçinə
Qonub sən gedəli sən gələn yola.

Yaman darıxmışam... Hər axşamçağı
Arzumu günəşin telinə sardım.
Mənimlə olsaydı, mən darıxmağı
Zamana ən uzun ölçü sanardım...

Yuxuma gəlmişdin... Qısıldıq küncə
Danışdıq...Yel əsdi... Dağıldı dərd-qəm.
Kölgəyə dönmüşdüm, səni görüncə
Sənin işığında yox oldu kölgəm...

**Məmməd Araz**

### Sən getdin

Sən mənim yazıma birinci yağış,
Sən mənim qışıma sonuncu qardın.
O mənim qəlbimdə ünvan tapmamış,
Pərişan bir eşqi hara apardın.

Sən getdin, təbiət bir səs itirdi,
Bir sevgi dastanı qaldı yarımçıq.
Bir ulduz əbədi buluda girdi,
Bir çiçək göyərib soldu yarımçıq.

Sən getdin, son həsrət eşqi gözündən,
Qəlbimə axmadı sözlə, qılıqla.
Bəlkə oğurlayıb səni özümdən
Sənə qaytarırdım bu ayrılıqla.

Son dəfə dinlədim ayaq səsini,
Qəlbimdə bir tufan qopdu dərindən.
Sən getdin, elə bil yer kürəsini
Ayırdın bir anlıq öz mehvərindən.

Dəydi bir-birinə səma, dəniz, dağ,
O görüş nə idi, bu ayrılıq nə?
Nə bilim, hər halda bir qəlbi qırmaq,
Bir tale yıxmaqdan asandır mənə.

Bir də ki, dənizə bənzər bu aləm,
Həyatım, taleyim onsuz deyildir.
Mən yalnız gəmiyəm, üzmək bilirəm,
Hara üzməyimi cəmiyyət bilir.

*Könlüm şeir istəyir*

# Sevgi - şeirdi, şeir - sevgi



*Şeir təkcə duyğular, duyumlar üçün deyil, şeir oxuyanı həm də məzmununa müvafiq ovqatla düşündürür. Təbiətdən yazılan şeirlər təbiəti sevdirir. Bu baxımdan şeir təbiətə açılan pəncərədir - baxırsan, görürsən, vurulursan, düşünürsən. Xətainin "Bahariyyə"si kimi... İctimai-siyasi şeirlər, əsasən, düşüncələrə ünvanlanır, oxucu ilə cəmiyyət, oxucu ilə tarix arasında poetik münasibəti müəyyənləşdirir. Ruhi qüdrət sevgi şeirlərində də var. Sevgi - şeirdi, şeir - sevgi... Həsrəti də şirin olan hər sevda (sevgi) öz şeirinin yuvası olur. Bu baxımdan hər sevgi şeiri öz görkəmində, məzmununda gözəldi, həm də hər şeir könülə yatmır. Könlünüzə yatacaq sevgi şeirləri təqdim edirik. Vətəni də qoruyursunuz, sizdən qələbə gözləyənlərin sevgisini də!..*

**"Azərbaycan Ordusu"**

**Əli Kərim**

### İki sevgi

Gözəl qız, sən saf susan,
İki qəlb arzususan.
Mənsə səni sevirəm
Susuzluğun od vurub köz kimi yandırdığı
Dodaq su sevən kimi.
O isə səni sevir
Rahatca bardaş qurub,
- Kabab üstdən sərin su pis olmaz -
deyən kimi.
Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm iynənin ucu boyda,
İşığa həsrət qalan göz işıq sevən kimi.
O isə səni sevir
Bir şən mağarda, toyda
İşıqlardan yaranmış yaraşıq sevən kimi.
Danış, ucalsın səsin,
Qısılmasın nəfəsin.
Mən ki, səni sevirəm
Bakıdan, Daşkəsəndən
Gələn bir səda kimi,
Səs kimi,
Qüdrət kimi...
O isə səni sevir,
gizli deyil ki səndən,
Bir otaq küncündəki qəmli sükunət kimi.
Bu mən, bu o, bu da sən,
De görək nə deyirsən.
Amma yaxşı fikir ver bu iki məhəbbətə.
Daha heç nə demirəm
Nöqtə, nöqtə və nöqtə...

**Nüsrət Kəsəmənli**

### Bəlkə bu təsadüf

Bizi görüşdürüb nigaran yollar,
Yollar ürək kimi boşalar, dolar.
Allahın işini nə bilmək olar,
Bəlkə bu təsadüf məhəbbət oldu.

Bəlkə tanrı payım, könül ruzumsan,
Bəlkə də tanrıya çatan sözümsən.
Bəlkə də sən mənim alın yazımsan.
Bəlkə bu təsadüf məhəbbət oldu.

Yaranan ülfəti sən kəsmə hələ,
Tale qismətindən sən küsmə hələ.
Əlvida deməyə tələsmə hələ,
Bəlkə bu təsadüf məhəbbət oldu.

Ürəyim az qalır sinəmdə uça,
Həmdəm aramışam ömür boyunca.
Qoy bir də üzünə baxım doyunca,
Bəlkə bu təsadüf məhəbbət oldu.

Ötəri tanışlıq bir adət deyil,
Elə hər sevgi də səadət deyil,
Bilirəm hər görüş məbəbbət deyil,
Bəlkə bu təsadüf məhəbbət oldu.

**Müzaim İsmayılzadə**

### Necə çəkmişəm

Haradan biləsən, nərgiz ətirlim,
Çəkilməz dərdləri necə çəkmişəm?
Səhərdən axşama... İşlərim çoxdu
Gündüz sahmanlayıb gecə çəkmişəm.

Xoşbəxtlik istədim, çox asta gəldi,
Könül sarayıma çox bəstə gəldi,
Həsrət də kədərdi, üst-üstə gəldi,
Bir deyil, beş deyil, neçə çəkmişəm?

Alovdan ötmüşəm, keçmişəm oddan,
Yaşanan ağrılar çıxarmı yaddan?!
Duydu... Çiyin çəkdi tanış da, yad da -
Hamısı boş şeymiş... Hecə çəkmişəm.

*Hərbi ənənələr, yeniliklər*

# Müasir raketli T-50 qırıcısı



Rusiyanın beşinci nəsildən olan yeni T-50 qırıcısı cəbhə aviasiyasının müasir və tam təchiz olunmuş perspektiv aviasiya kompleksidir.

Yüksək manevrlidir, düşmən radarları üçün görünməzdir, özü isə bütün görünən və görünməyən hədəfləri seçə bilir. Müxtəlif məsafədən hədəfləri məhv etməyə qadirdir.

T-50 qırıcısında dairəvi görünüşü təmin etmək üçün altı radar quraşdırılıb. Kabinənin fənərinin qabaq hissəsinin sağ tərəfində hədəfləri aşkar etmək üçün oprik-televizion aşkaretmə sistemli göstərici, maşının arxa hissəsindən hədəfləri görmək üçün isə arxada infraqırmızı göstərici quraşdırılıb. Qırıcının "Himalay" radioelektron mübarizə stansiyası isə düşmənin özütuşlanan raketlərini azdırmağa qadirdir. Onun radioelektron kəşfiyyat sistemi isə bütün göstərici və sistemlərdən məlumatları toplayaraq yerdə və hava ərazisində baş verənləri bir yerə toplayaraq pilota məlumat verir və buradan da lazımi məntəqəyə ötürülür. T-50 bombardmançı-qırıcısı hədəflərə qarşı təyyarə və zenit-raket komplekslərini də istiqamətləndirə bilər.

Qırıcı-bombardmançının döyüş çəkisi 10 tondan artıqdır. Onun 1,5 tonunu müxtəlif sinifli raket silahlanması təşkil edir.

Müəssisənin baş direktorunun məlumatına görə, T-50 qırıcı-bombardmançıda heç kəsin görmədiyi və eşitmədiyi yeni X-74M2 raketi yerləşdiriləcək.

Yüksək səsə malik olan X31 qanadlı raketi (İxrac variantı X-31AD) daha iri və ağır çəkilidir. Onun çəkisi 600 kiloqram təşkil edir. Raket ildirim sürəti ilə hədəfə xəncər zərbəsi vurur və ondan yan keçə bilməzsən.

X-74M2 raketindən başqa T-50 qırıcısının çoxlu raket silahlanması da vardır ki, onu sarsılmaz qüvvəyə çevirir. Yeni radiolokasiya əleyhinə raketlərdən biri də təyyarənin gövdəsində yerləşdirilən X-58UŞK raketidir. X-58 raketindən fərqli olaraq iki dəfə kiçik



raketdir və onun sınağı bu yaxınlarda başa çatıb.

Təyyarənin daxili bölməsində yeni "hava-hava" sinifli yaxın (RVV-MD), orta və uzaq məsafəli (RVV-SD, RVV-BD) idarəolunan raketlərdən istifadə ediləcək. Bu raketlər manelərə qarşı davamlı olmaları ilə fərqlənir. Raketlər avtonom uçuşlar zamanı hədəfləri aşkar edə və ələ keçirə bilər. 200 kilometrlik uzaqlıqda və 25 kilometrlik hündürlükdə hədəfləri məhv etməyə qadirdir.

T-50 qırıcısında gəmiləyhinə taktiki aviasiya X-35UE raketinin də yerləşdirilməsi nəzərdə tutulub. Onun döyüş təchizatı 145 kiloqram olmaqla 260 kilometrlik məsafədə yerləşən hədəfi məhv etməyə qadirdir. Hədəfi radiolokasiya tuşlama başlığı ilə 50 kilometrlik məsafədən ələ keçirir. Bir raketlə qayıq və kiçik raket gəmilərini, iki raketlə isə esminləri batırmaq olar. T-50 qırıcısı xüsusiyyətlərinə görə öz sələflərini və xarici analoqlarını üstələyir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 242
Nüsxə 4650